**UOT 94(479.24)**

# AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA İLHAM ƏLİYEVİN ROLU

**V.R.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***kipchak79@mail.ru***

*Məqalə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-2011-ci illərdə respublikanın iqtisadi yüksəlişi, neft-qaz sektoru ilə yanaşı Azərbaycanın regionlarının inkişafında rolunun öyrənilməsinə həsr olunub.*

**Açar sözlər**: Azərbaycan, iqtisadiyyat, neft, regionların inkişafı, kənd təsərrüfatı

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində ulu öndərimiz Heydər Əliyevin müstəsna yeri vardır. O, Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan Respublikası regionun ən aparıcı dövlətlərindən birinə çevrilmiş, dünya birliyində böyük nüfuz qazanmışdır. Ona görə də, Heydər Əliyev kimi tarixi şəxsiyyətdən sonra ölkənin taleyi respublikamıza kimin rəhbər seçilməsindən çox asılı idi. Çünki həmin dövrdə Azərbaycanda prezident kürsüsünə yiyələnmək üçün çoxsaylı iddiaçılar var idi. Ona görə də, istənilən gözlənilməzlik, yəni idarəçiliyə yad adamın hakimiyyətə gəlməsi həm vətəndaşlarımız, həm də ölkədaxili ictimai-siyasi sabitliyə güvənərək respublika iqtisadiyyatının müxtəlif sferalarına külli miqdarda sərmayə qoyan xarici investorlar üçün yetərincə problemlər yarada bilərdi.

Artıq xalqımız yaxşı anlayırdı ki, Azərbaycan kimi təhlükəsiz və azad dövlətdə, demokratik vətəndaş cəmiyyətində sosial və mənəvi dəyərlərin qorunduğu şəraitdə yaşamaq üçün yalnız görkəmli dövlət xadimi, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi platformasına sadiq olan namizədə etimad göstərmək lazımdır. Məhz bu baxımdan Azərbaycanın gələcəyini müəyyənləşdirəcək şəxsin Heydər Əliyevin rəhbərlik etdiyi idarəçilik sisitemində yetişmiş, siyasətin, diplomatiyanın incəliklərini ulu öndərimizdən öyrənmiş və onun ideallarına sadiq qalan İlham Əliyevin olacağı artıq Azərbaycan cəmiyyətində şübhə doğurmurdu.

İlham Əliyevinn dövlət idarəçiliyinin müxtəlif sahələrində dərin bilik və

təcrübəyə yiyələnldiyinə tamamilə əmin olan ulu öndər Heydər Əliyev prezident seçkiləri ərəfəsində 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək demişdir: «Üzümü Sizə-həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, proqramatik düşüncəli müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir» (1).

Xalqımız ulu öndərimizin səsinə səs verərək 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidentliyinə alternativ əsasda keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəklədilər və o, böyük səs çoxluğu ilə layiqli qələbə qazandı. İlham Əliyev xalqın siyasi iradəsi əsasında Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Heydər Əliyev siyasi kursuna sədaqət nümayiş etdirərək ölkəmizin taleyüklü məsələlərinin həllinə cəsarətlə girişdi. Belə ki dövlət başçısı ilk olaraq 2003-cü il 24 noyabr tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» (2) fərman imzalayır. Az bir müddət ərzində xalq təsərrüfatının bütün sahələrində inkişaf özünü göstərməyə başlayır. Bunun ardınca Prezident İlham Əliyev 2004-cü il 11 fevpal tarixli «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında» (3) ölkəmiz üçün önəmli əhəmiyyət kəsb edən fərman imzalayır. Bu fərmanda regionların kompleks inkişafına, infrastruktur sahələrinin yenidən qurulmasına, yeni istehsal və emal müəssisələrinin, obyektlərin yaradılmasına, iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin yuksəldilməsinə xüsusi diqqət yetirilmişdir.

Ümumiyyətlə, Prezident İlham Əliyev bütün dövlət aparatını qarşıya qoyulan vəzifələrin reallaşdırılmasına doğru yönəltməyə nail olmuş və bunların nəticəsi olaraq, respublikamızın iqtisadi potensialının ildən-ilə güclənməsi, əhalinin maddi həyat səviyyəsinin yaxşılaşdırılması-Azərbaycanın gələcəyinə hesablanan məqsədyönlü dövlət proqramının ana xəttini təşkil etmişdir.

İqtisadiyyatın ayrı-ayrı sahələri ilə yanaşı kənd təsərrüfatının inkişafına da önəmli əhəmiyyət verən Prezident İlham Əliyev 2004-cü il 23 oktyabr tarixli «Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» (4) sərəncam verir. Orada aqrar sahədə qarşıda duran başlıca vəzifələrdən biri kimi istehsalçının zəruri kənd təsərrüfatı texnikası ilə təchizatının yaxşılaşdırılması, keyfiyyətli məhsul yetişdirilməsi və onun itkisiz yığılması məqsədilə həyata keçiriləcək tədbirlərə xüsusi diqqət verilmişdir.

Qeyd etmək lazımdır ki, qəbul edilmiş prezident fərmanlarının və aparılan islahatların nəticəsində ölkəmizdə bütün sahələrdə inkişaf nəzərəçarpacaq dərəcədə artmışdır. Belə ki, 2003-2006-cı illər ərzində ümumi daxili məhsul istehsalı 84 faiz, o cümlədən sənaye məhsulu 2 dəfə, kənd təsərrüfatı məhsulu 11,3 faiz, inşaat işlərinə yönəldilmiş investisiya 83,8 faiz, yük daşınması 79,4 faiz, rabitə 2,3 dəfə əmtəə dövriyyəsi 44 faiz artğmışdır. Bu müddət ərzində 28 iri sənaye müəssisəsi tikilib istıifadəyə verilmişdir (5).

Prezident İlham Əliyev neft strategiyasında da varisliyi inamla təmin edərək Bakı-Tbilisi-Ceyhan neft kəmərinin praktik şəkildə gerçəkləşməsinə nail olmuşdur. Belə ki, 2005-ci il mayın 25-də kəmərin Azərbaycan, oktyabrın 12-də Gürcüstan hissəsinin neftlə doldurulması başa çatdırılmış 2006-cı il mayın 28-də isə Azərbaycan nefti Türkiyənin Ceyhan terminalına çatdırılmışdır. Nəhayət, 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan terminalında Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tam istismara verilməsi ilə bağlı təntənəli tədbir keçirilmişdir. Mərasimdə çıxış edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdir: «Hamımız xatırlayırıq ki, bu nəhəng transmilli layihənin təməli 1994-cü ildə Bakıda «Əsrin müqaviləsi»nin imzalanması ilə başlanmışdır. Məhz o ağır, çətin dövrdə Azərbaycan rəhbərliyinin qətiyyəti və uzaqgörənliyi nəticəsində «Əsrin müqaviləsi» imzalandı və bundan sonra bütün məsələlər öz həllini tapdı. Yeni kəmərlər tikildi, yeni neft infrastrukturu yaradıldı» (6).

Ümumiyyətlə qlobal əhəmiyyətli iqtisadi layihələr olan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə duşməsi və Bakı-Tbilisi-Qars dəmir yol xəttinin çəkilişinin uğurla davam etdirilməsi Prezident İlham Əliyevin ən böyük nailiyyətlərindəndir.

Qeyd etmək lazımdır ki, ölkə başçısı İlham Əliyev enerji təhlükəsizliyi ilə yanaşı ərzaq təhlükəsizliyi məsələsinə də önəmli əhəmiyyət vermişdir. Bu baxımdan onun imzaladığı 2008-ci il 1 may tarixli «Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminata dair dövlət Proqramının hazırlanması haqqında» (7) sərəncamını qeyd etmək olar. Sərəncamda ölkəmizdə əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur. Bu məqsədlə ölkədə ərzaq istehsalı sahəsində, xüsusilə aqrar bölmədə bir sıra köklü imslahatlar aparılmış, kompleks tədbirlər sistemi həyata keçirilmişdir.

Ölkəmizdə ardıcıl olaraq yeridilən və milli dəyərlərə əsaslanan strateji kurs, məqsədyönlü və çevik islahatlar Azərbaüycanı qısa müddət ərzində keyfiyyətcə yeni və daha sürətli inkişaf mərhələsinə çıxarmışdır. Belə ki, təkcə 2007-ci ildə respublikamızda ümumi daxili məhsul istehsalı təxminən 25 faiz, sənaye istehsalı 24 faiz artmış, 42 milyon ton neft hasil edilmiş, 145 min yeni iş yeri açılmışdır ki, onlardan da 105 mini daimi iş yerləridir (8). Bunlardan başqa həmin dövrdə 344 emal müəssisəsi, 822 tikinti müəssisəsi, 579 kənd təsərrüfatı müəssisəsi, 1700-dən çox ticarət və xidmət müəssisəsi açılmışdır (9).

Ulu öndərimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş sahibkarlığın inkişafı strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanda sahibkarların cəmiyyətdə tutduğu mövqe xeyli möhkəmlənmişdir. Belə ki, 2007-ci ildə dövlət büdcəsindən sahibkarlığın inkişafına ayrılmış vəsaitin həcmi 2004-cü illə müqayisədə 4 dəfə, 2003-cü illə müqayisədə 7 dəfə, 2002-ci illə müqayisədə isə təxminən 30 dəfə artmışdır. Ümumilikdə 2004-2007-ci illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına ölkə üzrə 6194 sahibkkarlıq subyektinə 235,6 milyon

manat kredit verilmişdir ki, bunun nəticəsində 60 minə yaxın yeni iş yeri yaradılmışdır (10).

Məhz qeyri-neft sektorunun inkişafıı yolu ilə regionların tarazlı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial rifahının yaxşılaşdırılması və faydalı məşğulluğun təmin edilməsi, böyük nəticələrə gətirib çıxarmışdır.

Qazanılmış nailiyyətlərə toxunan Prezident İlham Əliyev Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icrasının dördillik yekunlarına həsr olunmuş konfransdakı çıxışında demişdir: «Mən böyük qürur hissi ilə deyə bilərəm ki, dörd il ərzində Azərbaycanın iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə inkişaf edibdir. Heç bir başqa ölkədə dörd il ərzində ümumi daxili məhsul iki dəfə artmayıbdır. Heç bir başqa ölkədə büdcə 10 dəfə artmayıbdır. Heç bir başqa ölkədə cəmi dörd il ərzində yoxsulluq 3 dəfə azalmayıbdır. Dörd il ərzində 650 min yeni iş yeri açılmışdır ki, onlardan 480 mini daimi iş yerləridir» (11).

Ulu öndər Heydər Əliyev hələ prezidentliyinin ilk illərində demişdir: «Əgər bu gun qarşımızda duran vəzifələri layiqincə yerinə yetirə bilsək, Azərbaycan xalqı, respublikası, müstəqil dövlətimiz üçün gələcəkdə daha gözəl şərait yarada bildərik» (12, 136).

Ümumiyyətlə, prezident İlham Əliyev Heydər Əliyevin irəli sürdüyü bütün ideyalara həssaslıqla yanaşaraq onların həyata keçməsinə nail olmuşdur.

Bütün bunların məntiqi nəticəsi kimi 2008-ci ildə keçirilən prezident seçkilərində İlham Əliyev 88 faiz səslə yenidən ölkə başçısı seçildi. Bu isə bir daha sübut etdi ki, Azərbaycan xalqı öz taleyini təsadüflərin ixtiyarına buraxmaq istəmir və onu xoş günlərə, parlaq gələcəyə aparan strateji xətti-Hnydər Əliyev siyasətini dəstəkləyir.

Sonrakı illərdə də Azərbaycanda sosial-iqtisadi inkişaf uğurla davam etdirilmişdir. Belə ki, «Regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramının (2004-2008-ci illər)» icrasının 5 ili ərzində Azərbaycan iqtisadiyyatı 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə artmış, adambaşına düşən gəlir 5,5 min dollar olmuşdur. Bunlardan başqa, 766 min yeni iş yeri açılmışdır ki, onlardan da 547 mini daimidir. Yoxsulluq səviyyəsi isə 49 faizdən 13,2 faizə düşmüşdür (13).

Prezident İlham Əliyev hakimyyətdə olduğu ilk beş il müddətində regionların bütün rayonlarını əhatə etməklə 127 səfər etmiş, yerlərdə görülən işlərlə, xalqımızın həyat səviyyəsi ilə maraqlanmış, ölkəmizin abadlaşdırılması və inkişafı üçün əhəmiyyəti olan 500-dək müəssisə və obyektin təməlqoyma və açılış mərasimlərində iştirak etmişdir (14).

Bu müddət ərzində təhsil və səhiyyə sahəsində də mühüm işlər görülmüşdür. Belə ki, 1600 yeni məktəb tikilib istifadəyə verilmiş və hamısı da kompyuterlə təmin edilmişdir. Ali məktəblərin təchizatı da yaxşılaşdırılmışdır. Ölkəmizin bütün bölgələrində yüzlərlə tibb ocağı tikilmişdir ki, onlardan da 8-i ən yüksək dünya standartlarına cavab verən müalicə-diaknostika mərkəzləridir (15).

Bakıda və onun ətrafında, eləcə də respublikamızın bütün regionlarında yeni parklar və istirahət guşələri salınmış, Avropa standartları səviyyəsində otellər, olimpiya idman kompleksləri, ticarət və xidmət obyektləri tikilmiş,

muzeylər, teatrlar, mədəniyyət ocaqları yüksək səviyyədə təmir olunmuş, yeni yollar və körpülər salınmışdır. Ölkəmizin müdafiə qabiliyyətinin artırılması və diasporumuzun gücləndirilməsi sahəsində də önəmli addımlar atılmışldır.

2009-cu ilin yekunlarına görə Azərbaycan dünya miqyasında ən surətlə inkişaf edən ölkələr sırasında olmuşdur. Belə ki, həmin dövrdə Azərbaycanda ümumi daxildi məhsul istehsalı 9,3 faiz, sənaye istehsalı 8,6 faiz, kənd təsərrüfatı istehsalı isə 3,5 faiz artmışdır. İl ərzində Azərbaycana 9,2 milyard dollar həcmində investisiya qoyulmuşdur ki, bunların 7,3 milyardı daxili sərmayələrdir (16).

2010-cu ildə də bu müsbət meyllər uğurla davam etdirilmiş və ilin altı ayı ərzində respublika iqtisadiyyatında artım 3,7 faiz, neft sektorunda 2,4 faiz, qeyri-neft sektorunda isə 15,3 faiz olmuşdur (17). 2010-cu ilin yekunlarına görə Azərbaycanda yoxsulluq 9,1 faiz təşkil etmiş, 2011-ci ilin birinci rübündə isə Azərbaycan iqtisadiyyatı bütövlükdə 1,6 faiz, qeyri-neft sektoru isə 5,6 faiz artmışdır (18).

Qeyd etmək lazımdır ki, qazanılmış uğurlarda prezident İlham Əliyevin apardığı düzgün kadr siyasəti və idarəçilik metodu da mühüm rol oynamışdır. Belə ki, kadrların seçilməsi və yerləşdirilməsinə önəmli əhəmiyyət verən ölkə başçısı daim bu sahəni diqqətdə saxlamışdır. Prezidentin icra aparatının rəhbəri, akademik Ramiz Mehdiyev bununla bağlı öz fikrini belə ifadə etmişdir: «Mən uzun illər Heydər Əliyevin komandasında çalışmışam, bu gün isə prezidentin icra aparatına rəhbərlik edirəm. Bu illər ərzində daim müşahidə etmişəm ki, həm Heydər Əliyev, həm də İlham Əliyev kadrlarla işə böyük məsuliyyətlə yanaşır, onların vəzifə öhdəliklərini necə yerinə yetirdiklərini bir neçə instansiya vasitəsilə dəqiqləşdirirlər. Kadrları yetişdirmək, seçmək, onlara nəzarət etmək rəhbərdən xüsusi bacarıq tələb edir. Heydər Əliyevin bu fitri istedadı indi Prezident İlham Əliyevin şəxsində təcəssüm edib» (19).

Ümumiyyətlə, prezident İlham Əliyev tərəfindən Azərbaycanda demokratik quruculuq işlərinin həyata keçirilməsi, müxtəlif sahələri əhatə edən çoxsaylı islahatların aparılması, yeni hüquqi bazanın formalaşdırılması, yeni dövlət strukturlarının yaradılması, dünya dövlətləri ilə əməkdaşlıq, beynəlxalq qurumlarla fəal iş birliyi, ölkə həyatında sabitliyə, əmin-amanlığa, dirçəlişə gətirib çıxarmışdır.

**ƏDƏBİYYAT**

1. «Azərbaycan» qəz., Bakı, 2003, 20 oktyabr
2. «Azərbaycan» qəz., Bakı, 2003, 25 noyabr
3. «Azərbaycan» qəz., Bakı,2004, 12 fevral
4. «Azərbaycan» qəz., Bakı, 2004, 24 oktyabr
5. «Respublika» qəz., Bakı, 2006, 8 noyabr
6. «Azərbaycan» qəz., Bakı, 2006, 14 iyul
7. «Azərbaycan» qəz., Bakı, 2008, 2 may
8. «Azərbaycan» qəz., Bakı, 2008, 12 yanvar
9. «Azərbaycan» qəz., Bakı, 2008, 12 fevral
10. «Azərbaycan» qəz., Bakı, 2008, 18 mart

11. «Azərbaycan» qəz., Bakı, 2008, 12 fevral
12. Heydər Əliyev.Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, Azərbaycan Universiteti, 1997, 136 s.
13. «Azərbaycan» qəz., Bakı, 2009, 24 fevral
14. «Azərbaycan» qəz., Bakı, 2008, 24 fevral
15. «Azərbaycan» qəz., Bakı, 2008, 24 fevral
16. «Azərbaycan» qəz., Bakı, 2010, 19 yanvar
17. «Azərbaycan» qəz., Bakı, 2010, 14 iyul
18. «Azərbaycan» qəz., Bakı, 2011, 13 aprel
19. «Azərbaycan» qəz., Bakı, 2007, 12 oktyabr

## РОЛЬ ИЛЬХАМА АЛИЕВА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ АЗЕРБАЙДЖАНА

**В.Р.НАБИЕВ**

### РЕЗЮМЕ

Статья посвящается изучению роли президента Азербайджанской Республики Ильхама Алиева в экономическом прогрессе республики, в развитии нефтегазового сектора и регионов Азербайджана 2003-2011-х годах.

**Ключевые слов**а: Азербайджан, экономика, нефть, развитие регионов, сельское хозяйство

## ILHAM ALIYEV'S ROLE IN SOCIAL-ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN

**V.R.NABIYEV**

### SUMMARY

The present article is dedicated to the study of the president Ilham Aliyev's role in the economic progress of the republic and the development of oil-gas sector as well as the regions of Azerbaijan in 2003-2011 years.

**Key words**: Azerbaijan, economy, oil-petroleum, development of regions, domestic, agrarian